# “Elektron kitabxanaların formalaşması problemləri” mövzusunda elmi-praktik konfrans

Aprelin 15-də AMEA İnformasiya Texnologiyaları İnstitutunda “Elektron kitabxanaların formalaşması problemləri” mövzusunda respublika elmi-praktik konfransı keçirilib. AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı Dövlət Universiteti, Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu və AMEA Mərkəzi Elmi Kitabxanasının təşkilatçılığı ilə keçirilən konfransda ölkənin müvafiq dövlət qurumları, ali təhsil müəssisələri və akademiyanın elmi-tədqiqat institutlarının alim və mütəxəssisləri, KİV nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan AMEA-nın akademik-katibi, AMEA İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev konfransın müasir dövrün ən aktual elmi problemlərindən olan elektron kitabxanaların formalaşması məsələlərinin müzakirəsi üçün müvafiq sahələr üzrə aparıcı alim və mütəxəssislərin bir araya toplanması baxımından əhəmiyyətini vurğulayıb.

Xalqımızın tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsinin toplanıb saxlanılması, biliklərin yayılması və gələcək nəsillərə ötürülməsində elektron kitabxanaların rolunun əvəzsiz olduğunu deyən akademik informasiya texnologiyalarının dinamik inkişaf etdiyi bir dövrdə elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi istiqamətində qarşıya qoyulan ən mühüm vəzifələrdən birinin də beynəlxalq standartlara uyğun e-kitabxanaların formalaşdırılmasi olduğunu vurğulayıb.




Alim dövlət tərəfindən bu sahəyə xüsusi diqqət yetirildiyini deyib və ölkədə informasiya cəmiyyətinin formalaşdırılması, İKT-nin bütün sahələrə geniş tətbiqi istiqamətində görülən işlərdən, qəbul edilən dövlət proqramlarından söz açıb. Bildirib ki, “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya”da informasiya cəmiyyətinin inkişafı şəraitində milli kontentin genişləndirilməsinə, ölkəmizin milli-mədəni irsinin qorunub saxlanılması və inkişafına, əhalinin ondan müasir texnologiyalar vasitəsilə istifadəsinə və bilik səviyyəsinin artırılmasına diqqət yetirilməsinin vacibliyi qeyd olunub.

Plenar iclasda Mədəniyyət və Turizm Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin sektor müdiri Lətifə Məmmədova “Elektron kitabxana mədəniyyətin fenomeni kimi”, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent Azad Qurbanov “Azərbaycanda korporativ elektron kitabxana şəbəkəsinin yaradılması modeli: problemlər və perspektivlər”, AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru Leyla İmanova “Elektron kitabxanaların qarşılıqlı inteqrasiyası problemləri”, Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun Azərbaycan Respublikası üzrə milli koordinatoru Cəmilə Yusifova “Beynəlxalq elmi bazalarda rəqəmsal kitabxanaların axtarış imkanları və tədris prosesində informasiya təminatının təşkili” adlı məruzələrlə çıxış ediblər.

Akademik R.Əliquliyev konfransda “Gələcək nəsil elektron kitabxanaların formalaşması perspektivləri” mövzusunda məruzə edərək kitabxanalarda veb-texnologiyalar, linqvistik texnologiyalar, bulud texnologiyaları, Big Data texnologiyaları və bibliometrik texnologiyaların tətbiqi istiqamətində fundamental tədqiqatların aparılmasının zəruriliyini vurğulayıb. Ölkədə milli elektron kitabxana mühitinin yaradılmasının prioritet məsələlərdən olduğunu söyləyən alim bildirib ki, bunun üçün e-kitabxanaların kommunallaşdırılması və inteqrasiyası əsas fəaliyyət istiqamətlərindəndir.

Milli antiplagiat sistemi və biometrik identifikasiya sisteminin yaradılmasının vacibliyindən söz açan R.Əliquliyev məruzəsinin sonunda elektron kitabxanalarda informasiya təhlükəsizliyi, transliterasiya və s. kimi bir sıra mühüm problemlərin həlli üçün ölkənin bütün alim və mütəxəssislərini, elmi qurumlarını birgə əməkdaşlığa səsləyib.

Fasilədən sonra konfrans 2 paralel seksiyada işini davam etdirib. Seksiya iclaslarında e-kitabxanaların formalaşmasının konseptual əsasları, texnoloji təminatı, təşkilati-hüquqi, təhlükəsizlik, terminoloji problemləri, sosial-iqtisadi və kulturoloji aspektləri və s. mövzularda 47 məruzə təqdim olunub.

**Yusif ƏLİYEV,**
*“Azərbaycan müəllimi”*